# *Sergey VLASENKO:* "Müharibənin Ukraynanın ətraf mühitinə vurduğu ziyan təxminən 91,6 milyard dollardır"

**Ukraynada üç ildən çoxdur davam edən müharibə ölkənin ətraf mühitinə ciddi ziyan vurub, meşə örtüyü və su ehtiyatları azalıb. Bu və digər məsələlərlə bağlı Ukraynanın Ətraf mühitin mühafizəsi və təbii sərvətlər nazirinin müavini Sergey Vlasenko AZƏRTAC-a müsahibə verib.**

*- Ukraynada davam edən müharibənin ölkənin ekologiyasına vurduğu ziyan haqda nə deyə bilərsiniz?*

- Təəssüf ki, müharibə Ukraynanın ətraf mühitinə son dərəcə mənfi təsir göstərir. Ukraynanın müvafiq nazirliyi ətraf mühitə dəyən zərərin hesablanması üçün xüsusi metodikalar hazırlayıb. Bu metodikalar yeddi sahəni əhatə edir: hava, meşələr, milli parklar, çaylar, dəniz, atmosfer və ümumilikdə təbiətə dəymiş zərərlərin hesablanması. Hazırda bu zərərin ümumi məbləği 3 trilyon 800 milyard qrivnaya (təxminən 91,6 milyard dollar - Red) çatır. Bu göstərici yalnız Ukraynanın azad edilmiş və nəzarətimizdə olan ərazilərinə aiddir. Təəssüf ki, bu rəqəm hər gün artır. Müvəqqəti işğal olunmuş ərazilərdə isə zərərin həcmi daha da böyükdür və bu rəqəm gələcəkdə daha da artacaq.

*- Ukrayna dünyada böyük meşə örtüyü ilə tanınan ölkələrdən biridir. Yəqin ki, hərbi əməliyyatlar meşə örtüyünü də yararsız hala salır?*

- Bu, ölkəmiz üçün çox böyük problemdir. Hazırda meşələrin üçdəbiri müharibədən zərər çəkib. Bu, təxminən üç milyon hektar təşkil edir. Həmçinin Ukrayna dünyada ən çox minalanmış ölkə hesab olunur. Biz davamlı olaraq həm insanların, həm də heyvanların minaya düşməsi, meşə yanğınları və digər faciələrlə qarşılaşırıq.

*- Bəs su ehtiyatları ilə bağlı vəziyyət necədir?*

- 2023-cü ildə "Kaxovka" Su-Elektrik Stansiyasının məhv edilməsi nəticəsində 14 milyard litr içməli su itirildi. Bu həcmdə su bütün bəşəriyyətin iki gün ərzində içə biləcəyi qədər idi. Hadisənin özü də böyükmiqyaslı ekoloji fəlakət oldu.

*- Müharibə dövründə Ukraynada atom elektrik stansiyalarının yarada biləcəyi fəsadlarla bağlı nə deyə bilərsiniz?*




- Hazırda Avropa qitəsinin ən böyük atom elektrik stansiyasında - işğalda olan Zaporojye Atom Elektrik Stansiyasında fövqəladə hadisə baş versə, təkcə Ukrayna deyil, bütün Avropa zərər çəkəcək. Çünki ətraf mühitin sərhədləri yoxdur - təbiət birgə qorunmalıdır. Xatırlatmaq lazımdır ki, daha əvvəl işğal olunmuş, lakin azad edilmiş digər atom elektrik stansiyası da mövcud idi - Çernobıl AES. 1986-cı ildə baş verən fəlakətin nəticələrini bütün Avropa hiss etmişdi. O vaxt İsveçdəki alimlər havada radioaktiv yod aşkar etmişdi.

2024-cü ilin fevralında Çernobıl AES-in təhlükəsiz sığınacağına hücum edilib. Dünyada ilk nüvə fəlakəti olan bu ərazi yenidən təhlükə ilə üzüzə qaldı. Ötən ilin dekabrında isə işğal olunmuş ərazilərdə neft daşıyan iki gəmi Qara dənizdə batdı və nəticədə dənizə neft məhsulları axdı. Bu hadisə dəniz florası və faunasına ağır ziyan vurdu.

Təbiət bu müharibənin görünməyən, lakin ən böyük qurbanlarından biridir.

*- Sonda Azərbaycan dövlətinin, diasporunun Ukraynanın müxtəlif bölgələrində ətraf mühitin inkişafına verdiyi töhfəni necə qiymətləndirirsiniz?*

- Müharibə olmasına baxmayaraq, Kiyev də daxil olmaqla, ölkənin bir çox bölgələrində Azərbaycan icması ətraf mühitin yaşıllaşdırılması işlərində yaxından iştirak edir. Azərbaycan dövlətinin dəstəyi ilə Kiyevdə də ətraf mühitin inkişafı üçün xüsusi layihələr həyata keçirilir. Bu cür aksiyalar gözəl başlanğıcdır, bu cür aksiyaları ancaq dəstəkləmək lazımdır. Son olaraq bütün bu nəcib işdə göstərdikləri dəstəyə görə Azərbaycanın diaspor fəallarına təşəkkür edirəm.

Azərbaycan.- 2025.- 15 may (№ 99).- S.2.